**30.04.2024г. Azərbaycan dili.**

**Mövzu: Məsdər**

Məsdər felin təsriflənməyən formasıdır.(Не определенная форма глагола) , Yə`ni zamana və şəxsə görə dəyişməyən formasıdır.Məsdər hərəkətin adını bildirir, -maq,-mək şəkilçiləri ilə düzəlir, nə etmək, nə olmaq və nə suallardan birinə cavab verir.Məsdər hərəkətin bütöb və əsas formasını bildirir. Cümlədə əsasən, mübtəda, tamamlıq, zərflik və xəbər olur. Məsələn: 1. *Yaşar imlanı yazmağa başladı.2.Danışmaq gümüşdür, susmaq qızıl.* 1-ci cümlədəki məsdər-*yazmağa* tamamlıq rolunda çıxış edir. 2-ci cümlədəki *danışmaq* və *susmaq* məsdərləri cümlənin mübtədası rolundadır.

Məsdər ikili xarakter daşıyır. O, həm felin, həm də ismin xüsusiyyətlərini özündə birləşdirir. **İsim kimi** –nə sualına cavab verir, hallanır və mənsubiyyətə gorə dəyişir.Məsələn:

*Adlıq gülmək, danışmaq*
*Yiyəlik gülməyin, danışmağın*
*Yönlük gülməyə, danışmağa*
*Təsirlik gülməyi, danışmağı*
*Yerlik gülməkdə, danışmaqda*
*Çıxışlıq gülməkdən, danışmaqdan.*

***Mənsubiyyətə görə dəyişir**. Məsələn:*

| *Tək* | *cəm* |
|---|---|
| *I şəxs mənim oxumağım* | *bizim oxumağımız* |
| *II şəxs sənin oxumağın* | *sizin oxumağı* |
| *III şəxs onun oxumağı* | *onların oxumağı* |

(Misallardaki –q-nın ğ-ya; k-y-ya çevrilməsinə fikir verin, onu izah edin).**Məsdər fel kimi** hərəkətin adını bildirir, əsası, kökü feldir, təsdiq və inkar olur( gəlmək, gəlməmək), təsirli və təsirsiz olur (oxumaq-nəyi, təsirli, gülmək-nəyə, təsirsiz),aktiv və passiv olur, ətrafına söz yığır və tərkib əmələ gətirir. Heç vaxt forma, zaman şəkilçilərini götürmür. Məsələn: gəlmək- nə etmək, təsdiq, təsirsiz, aktiv.

**Çalışma.** "duymaq" və "düşünmək" məsdərlərini hallandırın və mənsubiyyətə görə dəyişin.